# Böyük qayıdışın addımları

## Ağalıda təməlqoymadan cəmi 1 il 1 ay 1 gün sonra



### Bir başqa 28 May...

Şuşa ilinin 28 Mayı bir başqa oldu. Tarixi Zəfərdən sonrakı hər günümüz, hər bayramımız bir özgə ovqat yaradır. Builki 28 Mayı daha dəyərli edən nə idi? Bayramdan bir gun öncə Böyük qayıdışın ilk addımı atıldı! Müzəffər Ali Baş Komandan Zəngilanın Ağalı kəndində zəngilanlılarla görüşdü, onların doğma yurda dönüşünü Böyük qayıdışın kiçik addımı adlandırdı. Ağalılılar Müstəqillik Gününü öz doğma el-obalarında qarşıladılar. Abad və ağıllı kənddə, yüksək səviyyəli yaşayış üçün hər cür şəraiti olan el-obada! Ağalılıları ikiqat bayram münasibəti ilə bir daha təbrik edirik! Bu il 28 May ilk dəfə öz əsl adı ilə, Müstəqillik Günü olaraq bayram edildi!

Bəli, xalqımız 28 Mayı uzun illərdir bayram edir, bu il isə yeni ad və daha dərin məzmunda bayram etdik! Öz əsl mahiyyəti üzrə! Bayram işğaldan azad olunmuş torpaqlarımızda təməlatmalar, quruculuq fonunda keçirildi. Şuşa ilində Şuşa Bəyannaməsi ilə və o mübarək bəyannaməni imzalamış liderlərimizin iştirakı ilə qeyd etdik əziz bayramımızı! "TEKNOFEST Azərbaycan"la bəzənib düzəndi builki 28 May! Mübarək olsun! Zəfərin bayramı, bayramın zəfəri bir başqa cür olur!

Prezident İlham Əliyevin mayın 27-də Zəngilanın Ağalı kəndində "ağıllı kənd" layihəsinin açılışındakı və "TEKNOFEST Azərbaycan" festivalındakı nitqi vurğuladığımız məqamlar da daxil olmaqla, günümüzün, gələcəyimizin bütün dərinliyi və üfüqgenişliyi ilə izahı idi. Prezident yeni hədəfləri göstərdi, o hədəflərə yetişmək üçün əldə olunmuş bacarıqları göstərdi, xəlqi qürurumuzun mənəvi əsaslarını şərh etdi. Qürura, zəfərə, fəxarətə çox ehtiyacımız vardı. 44 günlük müharibə xalqımızın yüksək ləyaqətinin təsdiqi, uğurların uğur gətirdiyinin parlaq ifadəsi oldu. Bəli, biz əyilmədik, sınmadıq, güc topladıq və haqqın nazilsə də, üzülməyəcəyini bütün dünyaya sübut etdik. Sübut etdik ki, Azərbaycan xalqı qəhrəman xalqdır, dövlətcanlıdır, vətəncanlıdır.

Ağalıya köçdən illər öncə Cocuq Mərcanlıya köç olmuşdu, əlbəttə. Biz dövlətimizə, Ali Baş Komandanımıza həmişə inanmışıq və bilirdik ki, Cocuq Mərcanlıda verilən vədlər gerçəkləşəcəkdir. Budur, tarixi Zəfər çalındı, sonra infrastruktur layihələr sürətlə, keyfiyyətlə icra olundu və işğal mədəniyyətsizliyindən quruculuq mədəniyyətinə böyük ölçüdə keçid baş verdi. Biz ermənilərin vandalizmini unutmuruq, bizə vurduqları maddi ziyana görə təzminat ödəyəcəklər. Ancaq təzminatı gözləmədən, öz gücümüzlə, donora da ehtiyac duymadan qururuq, yaradırıq. 30 illik ağır işğala 44 gün içində son qoymaq, dərhal da quruculuğa başlamaq hər dövlətin bacaracağı iş deyil.

Ümummilli lider deyirdi: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" Bu sitat isə Prezident İlham Əliyevin Ağalıdakı nitqindəndir: "Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Dünya miqyasında bu il ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır!" İqtisadi qüdrət, güclu ordu Zəfərin, Böyük qayıdışın vacib şərtlərindəndir. Digər mühüm komponentlərlə birgə bu şərtləri düşünən, planlaşdıran, həyata keçirən və uğur qazanan siyasi iradə var, lider var! O lider Ağalıdakı nitqi ilə ötən illərə yekun vurub, Böyük qayıdışın ilk addımının necə gerçəkləşdiyini, daha nələrin necə və nə vaxt gerçəkləşəcəyini bildirdi.

### Təməlqoymadan cəmi 1 il 1 ay 1 gün sonra...

Ağalıda təməlqoymadan cəmi 1 il 1 ay 1 gün kimi qısa müddətdə xariqələr yaradılıb. Ağalıdakı şəraitlə tanışlıqdan sonra Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıl, Ağdam və digər şəhərlərimizin böyük sabahını təsəvvür edir və düşünürəm: Qarabağ, Zəngəzur Qafqazın cazibə mərkəzi olacaq! Oralarda yaşamaq, işləmək, təhsil almaq zövq verəcək, ömrü çağ, günü ağ edəcək! Və istər-istəməz müqayisə yaranacaq: həm işğal illəri ilə, həm də Ermənistan şəhərlərinin indiki durumu ilə! İşğalçı ilə qurucunun Qarabağa, Zəngəzura baxışının diametral fərqi bir yandan, Ermənistanın günu-güzəranı digər yandan... düşüncəyə dəvət edəcək: işğal Ermənistana nə verdi? Ermənistanı müdafiə edənlər nöqtənin yarısı boyda haqlı idilərmi? Əsla! Bax, bunlar barədə ermənilərin düşunməsi lazımdır. Elə Xankəndi və çevrəsindəki ermənilərin də dərindən düşünməsi lazımdır. Onlara ləyaqətli həyatmı sərfəlidir, yoxsa, qeyri-müəyyənlikmi, separatçı zehniyyətin revanşist cəhdlərinin növbəti qurbanlığı olmaqmı?

Yenə Prezidentdən misal çəkək: "Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir". Bir azdan Ermənistan vətəndaşları öz bərbad həyatları, sınıq-salxaq kəndkəsəkləri ilə, on-on beş kilometrlikdəki işıqlı, abad, qaynar Azərbaycan şəhərtipli qəsəbələrinin açıq fərqini dörd gözlə görəcək və öz hərbi-siyasi rəhbərliyinə bu fərqin mahiyyəti barədə sual etməyəcəkmi? Əlbəttə, edəcək! Faktdan başqa fakt yoxdur! Düşmən xar, dövlətimiz var olsun!

*Qənirə PAŞAYEVA,*
*Milli Məclisin Mədəniyyət komitəsinin sədri*

Xalq qəzeti .- 2022.- 2 iyun.- S.15.